Hərbi And.- 2022.- 30 iyun. S. 16.

# Tarix yazan qəhrəman



**Hərb tariximizin zəfər salnaməsi olan 44 günlük Vətən müharibəsi Azərbaycanın qüdrətini bir daha bütün dünyaya göstərdi. Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin səsləndirdiyi "Qarabağ Azərbaycandır!" şüarı torpaqlarımızın ərazi bütövlüyü uğrunda başladığımız haqq savaşımızın əsas qayəsi, əsgər və zabitlərimizi qələbəyə səsləyən rəhbər çağırışı oldu. Məhz bu şüar altında birləşən hər bir Vətən oğlu hərb tariximizə şanlı zəfərlərlə dolu günlər yazdı. Bu gün vətəndaş olaraq hər birimiz Vətən naminə döyüşən və yaralanan qazilərimizlə, qanları ilə dastan yazan şəhidlərimizlə hər zaman qürur duymalı, onları tanımalı və tanıtmalıyıq.**

Bu yazımızda 44 günlük Vətən müharibəsində iştirak edən və adını şəhidlik kimi uca bir zirvəyə yazdıran qəhrəman oğullarımızdan biri baş leytenant Hüseynov Raqib Adil oğludur.

Raqib Adil oğlu Hüseynov 1993-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Mərəlik kəndində anadan olub. İbtidai təhsilini kənd məktəbində alıb. Ailəsinin Naxçıvan şəhərinə köçməsi ilə əlaqədar təhsilini Heydər Əliyev adına Naxçıvan şəhər tam orta məktəbində davam etdirib. Qəlbinə hakim kəsilən zabit olmaq arzusu onu 2009-cu ildə Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə gətirib. İki il sonra liseyi yüksək qiymətlərlə bitirib, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, 2015-ci ildə məktəbi bitirərək leytenant rütbəsilə Gəncəyə göndərilib. 2018-ci ildən 2020-ci ilədək Tərtərdə qulluğunu davam etdirib.

Vətən müharibəsi başlayanda Raqib 9 ay idi ki, Naftalanda xidmət edirdi. 2020-ci il sentyabrın 29-da Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin nəşi Naxçıvan şəhər məzarlığında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Raqib Hüseynov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" medalları, Laçın və Suqovuşanın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Laçının azad olunmasına görə" medalı, "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



"Oğlumla hələ uşaqlığından fəxr edirdim. 5 yaşında olarkən mənə bir hərbi forma aldırmışdı, ən sevimli geyimi idi. İşini çox sevirdi, hərbidə zabit olaraq xidmətindən qürurlu idi. Arzuları çox idi, hər zaman söhbət edərkən şahidi olurdum ki, general olmaq arzusundadır. Bir sözlə, özünü tapmışdı bu peşədə. Əsgərindən öndə gedirdi. Əsgərləri evimizin qonağı olarkən Raqib haqqında çox gözəl sözlər, xatirələr danışdılar. "Komandirimiz gözəl qəlbli insan idi, həm də həssas idi. Hər birimizə böyük qardaş, ata qayğısı göstərirdi. Onun haqqı ödənilməz!", - dedilər. Ən unudulmayan xatirə o oldu ki, Raqib bir-bir əsgərlərinin üstünü örtüb çıxarmış", şəhid anası Rəna xanım oğlu haqqında danışarkən bildirdi.

Rəna xanım oğlu ilə telefon söhbətlərini xatırlayır: "Raqibin son zəngi sentyabr ayının 27-si səhər saat 9 radələrində oldu. O qürurlu bir səslə dedi ki, "Ana, başını dik tut, atamdan, bacımdan muğayat ol. Məndən nigaran qalma!" Bu, onun son zəngi oldu".

Sonra telefonda qəhrəman oğlunun bölüyündə xidmət edən əsgərlərin ürək sözlərini göstərir. Birini oxuculara təqdim edirik: "Uğrunda canından keçdiyi yüksəklik artıq bizdədir. Qisasını aldıq. Rahat olsun şəhidimiz. Onu unuda bilmirik, heç vaxt da unutmayacağıq".

Şəhidlik zirvədir. Bu zirvəni hər kəs fəth edə bilməz. O zirvəni fəth etmək üçün Raqib və Raqib kimi igidlər lazım idi. Qələbəni bizə onlar qazandırdılar və bu zirvəni fəth edərək ölümsüzlüyə qovuşdular. Bununla Azərbaycan Ordusu və Azərbaycan oğullarının nəyə qadir olduğunu göstərdilər...

***Bəxtiyar ƏLİYEV,***
***Naxçıvan Dövlət Tarix muzeyi***